AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

BAKALAVR PİLLƏSİ ÜÇÜN

# PROQRAM

İXTİSAS-050510 "EKOLOGİYA"

# FƏNN- İÜHF-B26 "TƏBİƏTDƏN VƏ ƏTRAF MÜHITDƏN İSTİFADƏNİN HÜQUQİ ƏSASLARI "

(IV kurs)

BAKI – 2015

# TƏBİƏTDƏN VƏ ƏTRAF MÜHITDƏN İSTİFADƏNİN HÜQUQİ ƏSASLARI

Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsasları fənni BDU-nun Ekologiya və Torpaqşünaslıq fakültəsində Ekologiya ixtisası üzrə təhsil alan bakalavrlara Coğrafi ekologiya kafedrası tərəfindən VIII semestrdə 60 saat (30 saat mühazirə, 30 saat məşğələ) həcmində tədris olunur.

**Mövzular üzrə saatların paylanması**

| № | Mövzular | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Müh. | Lab. |
| 1 | Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsasları fənninin məqsəd və vəzifələri | 4 | 2 | 2 |
| 2 | Ekoloji hüquq sərbəst hüquq sahəsidir | 4 | 2 | 2 |
| 3 | Ekoloji hüququn obyektləri və təhlili | 4 | 2 | 2 |
| 4 | Müharibə şəraitində ətraf mühitin mühafizəsi hüququ | 4 | 2 | 2 |
| 5 | Təbiətdən istifadə zamanı ekologiya hüququnun funksiyası və mənbələri | 4 | 2 | 2 |
| 6 | Ekoloji qanunvericiliyin əsas prinsipləri və növləri | 4 | 2 | 2 |
| 7 | Cəmiyyətdə insanların ekoloji-hüquqi statusu və təbiətdən istifadəyə ümumi ekoloji nəzarət | 4 | 2 | 2 |
| 8 | Təbiətdən səmərəli istifadənin təşkilati-hüquqi təminatı və ekoloji mühitin qorunması | 4 | 2 | 2 |
| 9 | Torpaqdan istifadənin və onun mühafizəsinin ekoloji-hüquqi əsasları | 4 | 2 | 2 |
| 10 | Yerin təkindən istifadə və onun mühafizəsinin ekoloji-hüquqi anlayışı | 4 | 2 | 2 |
| 11 | Sudan istifadə və onun mühafizəsinin ekoloji-hüquqi rejimi | 4 | 2 | 2 |
| 12 | Meşələrdən, bağlardan, parklardan və digər yaşıllıqlardan istifadə və onların mühafizəsinin ekoloji-hüquqi rejimi | 4 | 2 | 2 |
| 13 | Heyvanlar aləmindən istifadə və onun | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | mühafizəsinin ekoloji-hüquqi rejimi | | | |
| 14 | Atmosfer havasının mühafizəsinin ekoloji-hüquqi rejimi | 4 | 2 | 2 |
| 15 | Xüsusi mühafizə olunan təbiət kompleksləri və təbiət ərazilərinin ekoloji-hüquqi rejimi | 4 | 2 | 2 |
| Cəmi | | 60 | 30 | 30 |

## Mövzular və onların məzmunu

**1. *Ekologiya hüququ və təbiətdən istifadənin hüquqi əsasları fənninin məqsəd və vəzifələri.*** Təbiət və cəmiyyətin qarşılıqlı əsiri və onun formaları. Təbiətdən istifadənin hüquqi tənzimlənmə metodları. Ekologiya hüququnun yaranma məqsədi, inkişafı və tarixi.

**2. *Ekoloji hüquq sərbəst hüquq sahəsidir.*** Ekoloji hüquq sahəsinin analizi bizə əsas verir ki, bu hüquq sahəsini tamamilə sərbəst olduğu iddiasını qəbul edək.Ekoloji hüququn predmeti və cəmiyyətin qarşılıqlı əlaqələrini tənzimləyən ictimai münasibətlərdir.

**3. *Ekoloji hüququn obyektləri və təhlili.*** Ekoloji hüququn obyekti təbiət və cəmiyyət arasındakı əlaqələrin tənzimlənməsidir.Bu əlaqələrin əsas məqsədi ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə etməkdir.

**4. *Müharibə şəraitində ətraf mühitin mühafizəsi hüququ.*** Azərbaycan-Ermənistan müharibəsi şəraitində sosial bəlalarla yanaşı, ciddi ekoloji ziyanların vurulmasının hüquqi tənzimlənməsinin təhlili. İşğal altında olan rayonlarda vətəndaşların və dövlətin əmlaakı, sərvətləri ilə yanaşı, xalqımızın mədəni və mənəvi sərvətlərinin, habelə dövlət qoruqlarının talan edilməsindəki cinayətlərin hüquqi tənzimlənməsi yolları.

**5. *Təbiətdən istifadə zamanı ekologiya hüququnun funksiyası və mənbələri.*** Qanunlar, beynəlxalq hüquq normaları. Azərbaycan Respublikasının konstitusiyası, Azərbaycan Respublikasının Prezidentinin fərmanları, hökümətin, nazirlik-